# “Anamın kitabı” ingilis dilində



**IX “Gəncliyin səsi” festivalına dair tədbirlər planı çərçivəsində fevralın 2-də Mədəniyyət Nazirliyinin yeni layihəsi olan “Anamın kitabı” tamaşası Azərbaycan Dövlət Akademik Musiqili Teatrında növbəti dəfə teatrsevərlərin ixtiyarına verilib.**

Tamaşa Azərbaycan dramaturqu və nasiri, “Molla Nəsrəddin” ədəbi məktəbinin banisi və ideya müəllifi Cəlil Məmmədquluzadənin “Anamın kitabı” əsəri əsasında ingilis dilində hazırlanıb və səhnə əsərinin əvvəlində bu dilin iş sahəsində, cəmiyyət daxilində artıq dünya səviyyəsində yayılmış bir dil olması və bunun sayəsində insanların dünyaya asan çıxışının ola biləcəyindən söz açılır.

İdeyası Vətənə, xalqa, ana dilinə məhəbbət olan bu əsərdə, əsasən, üç qardaşın soykökündən uzaqlaşmalarının acı nəticələrini əks etdirən problemlər qabardılır. Qardaşların bir-biri ilə yad dillərdə ünsiyyət qurması onların uçuruma doğru getmələrinə səbəb olur və nəticədə onlar bir-birindən uzaqlaşırlar. Onlar, həmçinin doğma bacıları Gülbaharın öz yaxın dostları ilə icdivac qurmasını istəyir. Lakin aralarında olan dil, din və məzhəb ayrı-seçkiliyi buna imkan vermir.

Böyük dramaturqun “Anamın kitabı” əsərində əsas mövzu üç qardaşın düşüncə tərzlərinin fərqliliyi nəticəsində yaranan davamlı mübahisələrdir. Bu günümüzlə səsləşən, bizi narahat edən və düşündürən mövzu əsərin baş qəhrəmanı olan ananın timsalında təqdim olunur. O, övladlarını öz milli-mənəvi dəyərlərinə sahib olmağa, ana dilinə yiyələnməyə və birliyə çağırır. Oğullar isə daha çox müasir dünyanın tələblərinə cavab verməyə can atır və nəticə etibarı ilə öz milli dəyərlərini itirmək təhlükəsi ilə üzüzə qalırlar. Onların mənasız hərəkətlərinə dözməyən Zəhrabəyim ana bu dünyadan köçür...

Möhtəşəm səhnə tərtibatına və peşəkar aktyor oyununa malik tamaşa xüsusi ilə gənc teatrsevərlər tərəfindən rəğbətlə qarşılandı. Müasir üslubda köhnə fikrin təkrar, yeni variantda səhnələşdirilməsinin təqdirəlayiq olduğunu və tamaşanın dərin təəssürat bağışladığını deyən teatrın gənc tamaşaçıları teatr və aktyor heyətinə xüsusi təşəkkürlərini bildirdilər.

Səhnə əsərinin musiqi tərtibatçısı və direktoru İradə Gözəlova, quruluşçu rəssamı Vüsal Rəhimovdur. Rolları Lalə Süleymanova, Türkan Şahmarlı, Hüseyn Əlili, Zaur Əliyev və digər aktyorlar ifa edirlər.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAR (foto),***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 3 fevral .- S.10.